BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2015

## JURNALİSTİKA

**UOT 316.77.001.12/18;070:001.12/18**

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRİNİN MİLLİ MƏTBUATDA ƏKSİ

**A.Ə.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***aytekinzeynalova@mail.ru***

*Məqalədə müasir dövrdə dövlətlərarası münasibətlərin qurulması, inkişafı, təkmilləşdirilməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində kütləvi informasiya vasitələrinin, informasiya agentliklərinin, İnternetin və s.-nin rolu və əhəmiyyəti araşdırılır, beynəlxalq münasibətlərin subyekti olan hər hansı dövlətin daxili və xarici siyasətinin prioritetləri və reallaşdırılmasında ölkənin daxili və xarici durumu haqqında toplanmış konkret informasiyanın əhəmiyyəti açıqlanır, habelə Ümummilli Lider Heydər Əliyevin və Respublika Prezidenti İlham Əliyevin bu yönümdə diplomatik-siyasi fəaliyyəti təhlil edilir.*

**Açar sözlər:** təşkilat, peşəkarlıq, xarici siyasət, hökumət, qloballaşma

Müasir dövrdə dövlətlərarası münasibətlərin qurulması, inkişafı və təkmilləşdirilməsində kütləvi informasiya vasitələrinin, onun müxtəlif janrlarının, informasiya agentliklərinin, İnternetin və s.-nin rolu və əhəmiyyəti böyükdür. Böyük-kiçikliyindən asılı olmayaraq dünya birliyinin üzvü olan hər hansı dövlətin daxili və xarici siyasətinin başlıca istiqamətləri və qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi yollarının müəyyənləşməsi və reallaşdırılması ölkənin daxili və xarici durumu haqqında toplanmış konkret informasiya üzərində qurulur. Bu məqsədlə uzunmüddətli strateji və taktiki fəaliyyət proqramı hazırlanır, prioritetlər və vəzifələr müəyyənləşdirilir, informasiya hazırlığı aparılır və cəmiyyət məlumatlandırılır. Azərbaycan Prezidenti İlham Əliyev bu mənada informasiyanın rolu və əhəmiyyətindən bəhs edərək qeyd edirdi ki, "Ölkələr və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsində informasiya agentliklərinin, kütləvi informasiya vasitələrinin fəaliyyətindən çox şey asılıdır. Həqiqi məlumatın vaxtında verilməsi operativ qərarların qəbulunda, proseslərin düzgün şərh edilməsində, ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında mühüm rol oynayır... Lakin təəssüf ki, əksinə də olur. Bəzən hansısa yoxlanılmamış və ya qərəzli informasiya, yaxud

sifariş xarakterli informasiya ikitərəfli münasibətlərə müəyyən dərəcədə zərər də vura bilər" (21).

XX əsrin 90-cı illəri ərəfəsində keçmiş sovet məkanında başlayan milli azadlıq hərəkatları digər müttəfiq respublikalarla yanaşı Azərbaycanın da dövlət müstəqilliyinin elan olunmasına gətirib çıxardı. "Səhər" qəzeti 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti II sessiyasının "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Ali Sovetin 258 deputatının səs verdiyi Konstitusiya Aktının mətnini yayımladı. Aktın 16-cı maddəsi Azərbaycan Respublikasının beynəlxalq normalara uyğun fəaliyyətinə həsr olunmuşdu. Həmin bənddə deyilirdi: "Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək" (4, 6).

Azərbaycan dövlət müstəqilliyini elan etdiyi ilk günlərdən dünya birliyinin bərabərhüquqlu üzvləri sırasında yer almaq və beynəlxalq münasibətlərin subyektinə çevrilmək arzusunu birmənalı şəkildə bəyan etmişdi. "Həyat" qəzetinin dekabrın 3-də yaydığı məlumatında göstərilirdi ki, Azərbaycan Respublikasının Ali Soveti Birləşmiş Millətlər Təşkilatına və Dünya dövlətlərinə aşağıdakı müraciəti qəbul etmişdir: "Azərbaycan Respublikası keçmiş SSR İttifaqına daxil olmuş və öz müstəqilliyini elan etmiş bütün dövlətlərin suverenliyini tanıyır və qarşılıqlı fayda, bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyünə hörmət bəsləmək prinsiplərinə ciddi əməl etmək əsasında bütün dövlətlərlə normal münasibətlər saxlamağa və əməkdaşlıq etməyə hazırdır" (3).

Müstəqil Azərbaycan Respublikasının dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaranması haqqında 1990-cı illərin əvvəllərində fəaliyyət göstərən milli mətbuat növlərinin hamısı informasiya yayırdılar. Belə ki, "Səhər" qəzeti Azərbaycan Respublikasının tanınması barədə aşağıdakı məlumatı yaymışdı: "Xarici işlər Nazirliyinin rəsmi məlumatına görə 1992-ci il yanvarın əvvəllərinədək Türkiyə, Rumıniya, Pakistan, Monqolustan, Litva, Əfqanıstan, İsveçrə, Hindistan, Kanada, İran, Liviya, Kuba, Avstraliya, KXDR, Əlcəzair, Mozambik, Koreya Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Braziliya, ÇXR, Səudiyyə Ərəbistanı, Mərakeş, Belçika, AFR, Danimarka, Böyük Britaniya, Yunanıstan, İtaliya, İraq, Sinqapur, Efiopiya, Panama, Hollandiya, Banqladeş, Qazaxıstan, Norveç, Gürcüstan, Tunis, İordaniya, Tailand, Yaponiya, Peru, Yəmən, Oman, Laos, Malayziya, Sudan, Meksika və Fələstin Azadlıq Təşkilatı Azərbaycanın istiqlaliyyətini rəsmən tanımışlar... Yanvarın 8-də isə Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Azərbaycan Prezidentinə məktub göndərərək ABŞ hökumətinin Azərbaycanı müstəqil dövlət kimi tanıdığını bildirmişdi" (20,

244-245, 247).

Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması prosesində Azərbaycan həqiqətlərinin dünyaya yayılması yönümündə müxtəlif informasiya kanalları ilə məlumatlar yayımlanırdı ki, bunların içərisində başlıca yeri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması mühüm yer tuturdu. Əslində Azərbaycan məhz bu yolla tədricən dünya informasiya məkanına daxil olur və haqq səsini ucaldırdı. 1992-ci il yanvarın sonları üçün Dağlıq Qarabağ probleminin regional təhlükəsizliyə yaratdığı təhdidləri nəzərə alan ATƏM-in Nazirlər Şurası Cənubi Qafqaz regionuna xüsusi missiya göndərmək qərarına gəlmişdi. Azərinformun yaydığı xəbərdə deyilirdi ki, "SİTA xəbər vermişdir ki, Helsinki prosesinin iştirakçısı olan ölkələrin xarici işlər nazirləri şurasının yanvarın 31-də Praqada başa çatmış sessiyası (1992-ci il nəzərdə tutulur-müəl.) Dağlıq Qarabağa Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin nümayəndəliyini göndərməyi qərara almışdır. Bu təkliflə Böyük Britaniyanın nümayəndə heyəti çıxış etmişdir. Nümayəndəlik yaxın həftə ərzində erməni-azərbaycanlı münaqişəsi rayonuna getməli, toplanmış məlumat əsasında hesabat tərtib etməlidir". Məlumatda daha sonra göstərilirdi ki, nümayəndəlik münaqişə zonasından toplanmış faktlar əsasında hesabat hazırlamalı və onu Yüksək Vəzifəli Şəxslər Komitəsinin müzakirəsinə təqdim etməli idi. Komitə isə Dağlıq Qarabağda ATƏM-in öhdəliklərinin pozulub-pozulmaması haqqında rəy hazırlamalı və müvafiq qərar qəbul etməli idi (7).

Qəzetlər ATƏM nümayəndəliyinin tərkibi, fəaliyyətinin sürətləndirilməsi ilə bağlı məlumatları da yayırdılar. Məsələn, fevralın 12-də SİTA xəbər verirdi ki, ATƏM-in məruzəçisinin nümayəndəliyi tezliklə Azərbaycana, Ermənistana və Dağlıq Qarabağa yola düşəcək, təqribən 10 nəfərdən ibarət qrupa Çexoslovakiya Prezidenti dəftərxanasının müdiri Karel fon Şvartsenberq rəhbərlik edəcəkdir. Nümayəndəliyin fəaliyyətinin nəticəsi idi ki, ATƏM-in Praqada keçirilmiş iclasında Qarabağda vəziyyət haqqında bəyanat qəbul edilmişdir (19).

Dövlət müstəqilliyinin elan etdiyi ilk dövrlərdən etibarən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində 3 başlıca istiqamət özünü açıq şəkildə göstərməyə başlamışdı ki, azərbaycanli müəlliflərdən H.Hüseynovaya görə, bu istiqamətlər Türkiyə və Avropa yönümü, ABŞ yönümü və Rusiya yönümündən ibarət idi (17, 52). Təsadüfi deyildi ki, 1992-ci il yanvarın sonları üçün Respublikamızın dövlət müstəqilliyi Avropanın, demək olar ki, bütün dövlətləri tərəfindən tanınmışdı. Dövrün kütləvi informasiya vasitələri Azərbaycanda fəaliyyətə başlayan xarici ölkələrin və xaricdə fəaliyyətə başlaması nəzərdə tutulan Azərbaycan nümayəndəliklərinin yaradılması haqqında sistemli şəkildə xəbər informasiyaları yayırdılar. Belə ki, Azərinformun 1992-ci il martın 17-də Bakıda ABŞ-ın Azərbaycandakı səfirliyinin təntənəli açılışı ilə bağlı məlumatı Rusiya və İran tərəfindən birmənalı qarşılanmamışdı. Məlumatda Azərbaycanda rəsmi açılışı olmuş bu ilk səfirliyin ardınca martın 18-də BMT Baş katibinin xüsusi nümayəndəsi Sayrus Vensin və onu müşayiət edən

şəxslərin Bakıya gəlişindən də bəhs olunurdu (8).

Azərinformun az sonra yayılmış başqa məlumatında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Robert Finni qəbul etməsindən, görüşdə Azərbaycanın daxili vəziyyəti, Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq məsələlər ətrafında müzakirələrin aparılmasından bəhs olunmuşdu (13). Müstəqilliyin ilk illərindən etibarən formalaşmaqda olan milli mətbuat xarici siyasət məsələlərinə ciddi diqqət verməyə başlamışdı. "Səs" qəzetində "Xarici siyasət vəzifələrimiz" adlı yazıda gənc Azərbaycan diplomatiyasının diqqət yetirməli olduğu fəaliyyət istiqamətlərinə işıq salınırdı. Məqalədə Azərbaycanın xarici siyasət prioritetlərinin iki istiqaməti - Qərb və Şərq istiqamətləri araşdırma mövzusuna çevrilir, Avropa ilə yanaşı, İslam ölkələri ilə əməkdaşlığın qurulmasına və inkişafına diqqət yetirilməsinin vacibliyi göstərilirdi (22).

1991-1992-ci illərdəki publisistika informasiyanın müxtəlif janrlarından istifadə eləsə də, təhlil xarakterli yazılara geniş yer verilmirdi. Totalitar sistemin ağırlıqlarından yenicə xilas olmuş Azərbaycan jurnalistikası üçün bu təsadüfi deyildi. Hələ milli jurnalistikamız beynəlxalq təcrübədən yetərincə bəhrələnə bilmirdi, maddi-texniki bazası isə olduqca zəif idi. Buna baxmayaraq, respublikada və regionun ətrafında gedən proseslərə dünya mətbuatının münasibətinə milli mətbuatın reaksiyası özünü çox gözlətmirdi. Milli mətbuat Azərbaycanın dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələri ön plana çəkirdi. Bunların içərisində ölkənin müstəqilliyinin qorunması, dünya sisteminə inteqrasiya və beynəlxalq münasibətlərdə özünə layiq yer tutması, ərazi bütövlüyü və suveren hüquqlarının təmin edilməsi kimi vəzifələr mühüm yer tuturdu ki, bunun nəticəsində sabit vətəndaş cəmiyyəti formalaşdırılmalı idi.

Tədricən Azərbaycanın milli maraqları, erməni təcavüzünə qarşı təxirəsalınmaz vəzifələr, dünya birliyindən erməni separatizminə qarşı dəstək istənilməsi, milli təhlükəsizliyin təmin olunması yolları, ölkəni bürüməkdə olan siyasi və iqtisadi böhrandan çıxılması yolları kimi məsələlər milli mətbuatın daimi müzakirə mövzuları sırasına daxil olurdu. "Həyat" qəzeti "Diplomatik əlaqələr genişlənir" adlı yazıda respublikamızın xarici ölkələrlə əlaqələrinin yaradılması və xüsusiyyətləri məsələsinə önəm verirdi. Məqalədə diplomatik əlaqələrin genişlənməsi respublikamızın qarşılaşdığı informasiya blokadasından çıxışın başlıca yolu kimi qiymətləndirilir, milli təhlükəsizliyin təmin edilməsi üzərində düşünməyə çağırılır və qeyd edilirdi ki, Azərbaycan dünyada tək qalmamaq üçün strateji partnyor axtarışını davam etdirməli, Türkiyə ilə münasibətlərə isə xüsusi xarakter verməlidir (10).

Məlum olduğu kimi, hər hansı dövlətin xarici siyasət prioritetlərinin düzgün müəyyən olunması onda öz milli maraqlarını, ölkəni əhatə edən qonşu və region dövlətlərinin imkan və mövqelərini, dünya siyasəti və beynəlxalq münasibətlərin mahiyyəti və reallıqlarını, planetin birgəyaşayış normalarını müəyyən edən böyük dövlətlərin, beynəlxalq təşkilatların, güc mərkəzlərinin

maraq və mənafe çərçivələrini, onlara təsir imkanlarını dəqiq qiymətləndirə bilməsindən asılıdır. Azərbaycanlı müəlliflərdən Ə.Həsənova görə, müstəqilliyinin ilk illərində Azərbaycanın xarici siyasət prioritetləri içərisində başlıca yeri aşağıdakılar tuturdu:

- respublikanın bütün vətəndaşlarının, milli və sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsi;
- xarici siyasət resurslarından, diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, erməni separatçıları və Ermənistan qoşunlarının ölkənin ərazilərini işğal etməsinin qarşısının alınması, bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması, əleyhdarların bitərəfləşdirilməsi;
- dünya siyasətinə təsir imkanı olan böyük dövlətlərlə, beynəlxalq və regional təşkilatlarla, kütləvi informasiya vasitələri ilə, diaspora mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması;
- regionda ölkənin maraqlarının, bu yöndə region dövlətləri ilə əlaqə sisteminin, üst-üstə düşən və kəsişən məqamların tədqiq olunması, çevik və operativ fəaliyyət proqramının hazırlanması və həyata keçirilməsi (15, 239-240).

90-cı illərin əvvəllərindəki milli mətbuat tədricən dünya ölkələri ilə əməkdaşlığın genişlənməsi fonunda milli təhlükəsizliyin təmin edilməsi yolları müzakirə mövzusuna çevrilir və milli təhlükəsizliyin üç aspektinə: hərbi, siyasi və iqtisadi təhlükəsizlik məsələlərinə diqqət cəlb edilirdi. Dövlət müstəqilliyinin elan edildiyi dövrdən Azərbaycanın Avropaya üz tutması strateji əhəmiyyətə malik idi. Milli mətbuat obyektiv olaraq Avropanı Rusiyanın təsir dairəsindən qurtulmağın xilas yolu kimi seçmişdi. Problemin əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, milli mətbuat yaşanmaqda olan proseslərin içərisində təcrübə toplayır, püxtələşir, oriyentirləri düzgün müəyyənləşdirir və xarici kütləvi informasiya vasitələri və xəbər agentlikləri ilə iş birliyi quraraq dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində başlıca amilə çevrilirdi. Ümummilli lider təsadüfi olaraq demirdi ki, "Azərbaycan son on ildə deyil, tarixin son iki əsri ərzində Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə can atmışdır" (14, 76).

Hələ dövlət müstəqilliyi ərəfəsində yeni yaranmaqda olan milli mətbuatda Türkiyə ilə əlaqələrin qurulmasına dair çağırışlar davamlı xarakter daşıyırdı, Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkə kimi Türkiyə ilə diplomatik münasibətlərin qurulması milli mətbuatda bayram sevinci kimi qarşılanmışdı. 1991-ci il noyabrın 9-da Türkiyə hökumətinin ümumi iclasında Azərbaycanın müstəqilliyini qeyd-şərtsiz tanıma haqqında qərar verildi. Noyabrın 16-da isə qarşılıqlı əlaqələri nizama salmaq üçün Azərbaycan-Türkiyə işgüzar əməkdaşlıq komitəsi yaradıldı. 1992-ci il yanvar ayının 14-də Bakıda Türkiyə səfirliyi açılmış, A.Karamanoğlu ilk türk elçisi kimi fəaliyyətə başlamışdı. "Real" informasiya agentliyi bir qədər sonralar Azərbaycan Türkiyə

münasibətlərinin qurulmasına xüsusi əhəmiyyət verərək bunu Azərbaycanın Avropaya çıxışında mühüm hadisə kimi qiymətləndirmişdi (1).

Tədricən Azərbaycan kütləvi informasiya vasitələrinin dünya informasiya məkanına daxil olması ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında öz rolunu oynayırdı, lakin bu erməni təbliğat maşını ilə müqayisədə kifayət qədər zəif idi. "Respublika" qəzetinin 1992-ci il aprelin əvvəllərində yayımladığı informasiyada Avropanın müxtəlif ölkələrinin iri şəhərlərində - Londonda (Böyük Britaniya), Kölndə (Almaniya), Haaqada (Hollandiya), Strasburqda (Fransa) və s. yerlərində Azərbaycanla həmrəylik mitinqləri və nümayişləri keçirilməsinə dair xəbərlər yer almışdı (2). Qəzetin yaydığı başqa bir informasiyada isə 1992-ci il avqustun 11-də Ankarada Türkiyənin və Azərbaycanın xarici işlər nazirlərinin imzaladığı konsul sazişinə və ona əlavə protokola əsasən müvafiq olaraq İstanbulda və Naxçıvanda iki ölkənin konsulluqlarının açılması nəzərdə tutulmuşdur (12).

Azərbaycanın xarici siyasət strategiyası və taktikasının formalaşması, prioritetlərin müəyyənləşdirilməsi və dönmədən həyata keçirilməsi Heydər Əliyevin 1993-cü ilin ortalarında yenidən hakimiyyətə qayıdışı və Respublika Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Məhz Heydər Əliyev tərəfindən Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, Cənubi Qafqazda və Azərbaycanın ətrafında cərəyan edən hadisə və proseslərin Xəzər dənizinin karbohidrogen ehtiyatları ilə bağlılığı müəyyənləşdirildi və balans strategiyasının əsası qoyuldu. 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan ziyalılarının - "91-lərin müraciəti"nə ümummilli liderin cavabı ildırım sürəti ilə milli və xarici KİV-lərin səhifələrində yer aldı: "Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür <...> tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir" (20, 353).

Heydər Əliyev yaranmış şəraitdə, ilk növbədə, kütləvi informasiya vasitələrinin qarşısında duran taleyüklü məsələlərə diqqəti cəlb etmişdi: "Azərbaycandan kənarda Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərinə, müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilərlər" (20, 354).

Məhz Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi illərində AzərTac-ın fəaliyyəti köklü şəkildə yenidən təşkil olunmuş, yeni dövrün tələblərinə uyğun funksiyaları və vəzifələri müəyyənləşdirilmişdir. Heydər Əliyevin "Azərbaycan Teleqraf Agentliyinin (AzərTac-ın) yenidən təşkil edilməsi

haqqında” 1995-ci il 3 mart tarixli və “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin ” (AzərTac-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 2000-ci il 17 yanvar tarixli fərmanları ilə AzərTac-a dövlət agentliyi statusu verildi, xarici dillərdə xəbər istehsalı və yayımı təşkil olundu, onun maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması üçün zəruri tədbirlər görüldü, xarici ölkələrdə müxbir məntəqələri açıldı (6, 8).

90-cı illərin əvvəllərində Azərbaycan öz tarixinin ən ağır və mürəkkəb dövrlərindən birini yaşayırdı. Ölkənin milli təhlükəsizliyi sual altında idi, informasiya təhlükəsizliyindən söhbət belə gedə bilməzdi, respublikamızın ətrafında Rusiya, İran və Ermənistanın süni şəkildə yaratdığı informasiya blokadasını yarmaq formalaşmaqda olan milli mətbuatdan və digər kütləvi informasiya vasitələrindən xüsusi məharət, peşəkarlıq və beynəlxalq informasiya məkanına çıxmaq üçün bacarıq və xarici dəstək tələb olunurdu.

Beynəlxalq münasibətlərdə gedən qloballaşma və inteqrasiya prosesləri fonunda Azərbaycanın bir dövlət kimi gələcək dünya nizamında yeri, daxili və xarici siyasətinin xarakteri, istiqamətləri və prioritetləri müəyyən edilməli, Qərbə, yoxsa Şərqə, Rusiyaya, yoxsa postsovet məkanının digər dövlətlərinə inteqrasiya xətti seçilməli, ölkənin milli təhlükəsizliyinin mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqədə, yoxsa müstəqil, bitərəf şəkildə təmin olunması kimi məsələlər həllini tapmalı, bu mürəkkəb prosesdə kütləvi informasiya vasitələrinin roluna və yerinə aydınlıq gətirilməli idi ki, bu vəzifə zaman-zaman öz aktuallığını saxlayacaqdır. Respublika Prezidenti İlham Əliyev aradan onilliklər keçməsinə baxmayaraq güclü milli mətbuatın əhəmiyyətini xüsusi vurğulayaraq qeyd edirdi ki, “bu gün Azərbaycanda sözün əsl mənasında müstəqil mətbuata böyük ehtiyac var. Azərbaycanda mətbuatın müstəqilliyi cəmiyyətin sifarişidir. Mən hesab edirəm ki, mətbu orqanlar bəzi siyasi dairələrin təsirindən çıxmalıdır və sözün əsl mənasında müstəqil olmalıdır. Biz çox şeyi Avropadan öyrənirik, Avropaya inteqrasiya edirik və bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Hesab edirəm ki, bu sahədə də öyrənməyə ehtiyac var” (16, 66).

Milli mətbuat Azərbaycanın dünya dövlətləri ilə əlaqələrinin qurulmasına və inkişafına respublikamızın qarşılaşdığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi prizmasından yanaşır, işğalçı Ermənistanın və onun havadarlarının yaratdığı informasiya blokadasını yarmağa və regionda baş verən hadisələr haqqında dünyaya obyektiv məlumat çatdırmağa çalışırdı. Ölkənin milli və hərbi təhlükəsizliyinin əsas problemi Ermənistanla münaqişə vəziyyətindən çıxmaq, Dağlıq Qarabağ probleminin nizamlanmasına nail olmaq, ölkənin ərazi bütövlüyünü təmin etmək idi. Bunun üçün Azərbaycanın mövqelərini müdafiə edən tərəfdaşların sayını artırmaq və bu prosesdə xarici təcrübənin öyrənilməsi, xarici ölkələrlə və təşkilatlarla hərtərəfli iş aparılması, milli mətbuatın xarici KİV-lərlə əməkdaşlığı gedişində toplanmış təcrübədən ölkəmizdə Qərb dəyərləri ilə səciyyələnən dövlət və cəmiyyət quruculuğunda istifadə olunması vacib vəzifələrdəndir. Xüsusi qeyd etmək lazımdır ki, dövlət

və hüquq quruculuğu sahəsində xarici təcrübənin Azərbaycan qanunvericiliyinə implamentasiyasında milli mətbuat xüsusi rola malik olmuşdur. Belə ki, göstərilən sahələrdə xarici ölkələrin qanunvericiliyi və əldə olunmuş praktiki nəticələr, ilk növbədə milli mətbuatın iqtidar, müxalifət və müstəqil növlərində müzakirə və təbliğ edilir, yalnız bundan sonra praktiki həllini tapırdı. Azərbaycanlı müəlliflərdən R.Mehdiyev Azərbaycan diplomatiyasının prioritetlərinə toxunaraq qeyd edirdi ki, "Azərbaycanın regionda aparıcı rola olan iddiaları davamlı müttəfiqlik münasibətləri sisteminin formalaşmasını tələb edir. Məlumdur ki, ən yaxşı müttəfiq sərfəli tərəfdaşdır. Buna müvafiq olaraq müttəfiqlik gələcəyə, sərmayələrin qoyulması deməkdir... bu amil... strateji və perspektivli qonşuluq siyasətini formalaşdırmağın düzgün yoludur... Azərbaycan nəinki Avropanın enerji təhlükəsizliyi amili kimi çıxış etməyə, həm də Şərqdə təhlükəsizlik arxitekturasının formalaşmasının mühüm aspektinə çevrilməyə qadirdir" (18, 30-31).

Milli mətbuat Azərbaycanın neft və kommunikasiya diplomatiyasını kəsərli silaha çevirərək respublikamızın beynəlxalq aləmə çıxmasında, beynəlxalq mövqelərinin möhkəmlənməsində, regionda sabitliyin qorunmasında müsbət rol oynamışdır. Məlum olduğu kimi, 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırılması vəzifəsi dövlətin xarici siyasətinin başlıca prioritetlərindən biridir. Bu strategiyanın başlıca mahiyyəti Xəzər dənizinin Azərbaycan sektorunda olan karbohidrogen ehtiyatlarının Qərb texnologiyası və investisiya imkanları hesabına istehsalı və təhlükəsiz yollarla dünya bazarlarına çıxarılmasından, satışından əldə edilən vəsaitin ölkənin sosial-iqtisadi inkişafına yönəldilməsindən ibarətdir ki, Azərbaycan diplomatiyası bu yönümdə xarici şirkətlərlə 34 neft müqaviləsi imzalamağa nail olmuşdur (23, 152-153).

Neft və sülh mövzusunu nişangaha götürən "Azərbaycan" qəzeti ötən əsrin sonlarında yazırdı: "Heydər Əliyevin böyük neft siyasəti Azərbaycanın bir sıra iri dövlətlərlə enerji əməkdaşlığının əsasını qoydu, onun imzaladığı Əsrin kontraktı ABŞ-ı, İngiltərəni, Fransanı, İtaliyanı, Rusiyanı, İranı, Türkiyəni, Səudiyyə Ərəbistanını, Çini, Yaponiyanı, Norveçi Bakıya çəkib gətirdi və sübut etdi ki, böyük neft siyasəti ən güclü hərbi silahdan daha təsirlidir. O böyük perspektivli neft siyasəti dünyanın bütün böyük dövlətlərinin diqqətini beynəlxalq aləmdə ən zəngin neft ehtiyatlarına malik Azərbaycana cəlb etdi..." (9).

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi mövqeyini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim etməklə, Cənubi Qafqazın lider dövləti statusunu öz əlində saxlaya bilər və saxlamalıdır. Qərbin köməyi və davamlı dəstəyi ilə iqtisadiyyatda struktur islahatları müvəffəqiyyətlə başa çatdırmaq, dünyanın liberal ticarət-biznes məkanına daxil olmaq üçün əlverişli beynəlxalq dəstək almaq və dinamik inkişaf yoluna çıxmaq xarici siyasətin mühüm prioriteti olaraq qalır (15, 243-244).

Milli kütləvi informasiya vasitələri yeni minilliyin əvvəllərindən etibarən dəyişilmiş beynəlxalq şəraitdə Azərbaycanın xarici siyasət prioritetləri sırasına

Avropa təhlükəsizlik məkanına inteqrasiyanı daxil etmiş və bunun yolları ilə bağlı müzakirələrə geniş start verilmişdi. Bu yenilik Respublika Prezidenti İlham Əliyevin Moldovanın Kanal-4 televiziyasına müsahibəsində öz əksini tapmışdı: "Biz artıq bir ildir ki, Avropa İttifaqının Yeni qonşuluq proqramının üzvüyük, bu Avropa İttifaqı ilə münasibətlərimizin çox mühüm elementidir. Bu proqram çərçivəsində bizim əməkdaşlığımızı möhkəmləndirən tədbirlər həyata keçirilir, eləcə də çox ciddi siyasi və iqtisadi islahatlar aparılır. Biz çalışırıq ki, siyasi sistemin və iqtisadi inkişafın, vətəndaşların sosial təminatının bütün meyarları Avropa İttifaqının meyarlarına yaxın olsun. Biz çalışırıq ki, vətəndaşlarımız üçün Avropa İttifaqında vətəndaşlar üçün mövcud olan yüksək həyat səviyyəsini və azadlıqların səviyyəsini təmin edək" (5).

Ümumiyyətlə, Avrasiya məkanında həyata keçirilən beynəlxalq və regional inteqrasiyada öz layiqli yerini tutmaq, ölkənin milli maraqlarını qorumaq və təmin etmək vəzifəsi Azərbaycan diplomatiyasından xüsusi düşünülmüş və balanslı xarici siyasi xətt yeridilməsini tələb edir. Regionda yaranmış yeni beynəlxalq şəraitin xüsusiyyətlərinə toxunan Respublika Prezidenti İlham Əliyevin "bu gün biz regional əməkdaşlığın yeni formatı haqqında danışıqlar aparırıq. Xəzər dənizi, Qara dəniz, Baltik dənizi regionlarının əməkdaşlığından söhbət gedir. Bizim iqtisadi əlaqələrimiz, siyasi niyyətlərimiz, güclü siyasi dialoqun mövcudluğu, bununla bərabər real, konkret proqramların, layihələrin mövcud olması bizi daha da birləşdirir. Regional əməkdaşlıq çərçivəsində Avrasiya qitəsində mühüm rola malik olan GUAM təşkilatı və dost ölkələrin bu təşkilata olan diqqəti bizim qarşımızda duran məqsədlərin həlli üçün çox gözəl şərait yaradır" (11, 220) - fikri obyektiv reallığı əks etdirir və bu sahədə milli mətbuatın qarşısında yeni vəzifələrin durduğunu göstərir.

### ƏDƏBİYYAT


1. Azərbaycan Avropaya çıxır // "Respublika" qəzeti, 1992, 17 mart
2. Azərbaycan həqiqətləri Avropaya yayılır // "Respublika" qəzeti, 1992, 4 aprel
3. Azərbaycan Respublikasının Ali Sovetinin Birləşmiş Millətlər Təşkilatı və dünya dövlətlərinə müraciəti// "Respublika" qəzeti, 1991, 30 noyabr
4. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı: Azərnəşr, 1991, 12 s.
5. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Moldovanın Kanal-4 televiziyasına müsahibəsi // Dirçəliş-XXI əsr, 2007-2008, № 118-119, s. 299
6. Aslanov A. Müasir dünyanın informasiya şəbəkəsində AzərTAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri. Dərs vəsaiti. Bakı: Azərnəşr, 2012, 224 s.
7. ATƏM nümayəndəliyinin Dağlıq Qarabağa səfəri gözlənir // "Səhər" qəzeti, 1992, 2 fevral
8. Bakıda ABŞ səfirliyinin açılışı olmuşdur // "Səhər" qəzeti, 1992, 17 mart
9. Böyük neft siyasəti və sülhə gedən yol // "Azərbaycan" qəzeti, 1998, 3 noyabr
10. Diplomatik əlaqələr genişlənir // "Həyat" qəzeti, 1992, 13 iyun
11. GUAM-ın Bakıda keçirilən zirvə görüşü onun getdikcə artan beynəlxalq nüfuzunun təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Dirçəliş, 2007-2008, № 118-119, c. 220
12. İstanbulda və Naxçıvanda konsulluqlar açılır // "Respublika" qəzeti, 1992, 14 avqust
13. Heydər Əliyev ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Robert Finni qəbul etmişdir // "Respublika" qəzeti, 1992, 27 mart

14. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərnəşr, 1994, 174 c.
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
16. Hüquqi demokratik dövlət quran Azərbaycanda mətbuatın inkişafına bundan sonra da diqqət və qayğı göstəriləcəkdir // Dirçəliş-XXI əsr, 2007-2008, № 118-119, s. 66
17. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi nəşriyyat, 1998, 280 s.
18. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşməxətti // Dirçəliş-XXI əsr, 2007-2008, № 118-119, s. 30-31
19. Qarabağda vəziyyət haqqında bəyanat qəbul edilmişdir // "Səhər" qəzeti, 1992, 12 fevral
20. Qətiyyətin təntənəsi. Bakı: Səhər, 1995. 845 s.
21. Prezident İlham Əliyev AzərTAc-ın 90 illik yubiley mərasimində və MDB Ölkələri Milli İnformasiya Agentlikləri Rəhbərləri Şurasının iclasında iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etmişdir // "Azərbaycan" qəzeti, 2010, 2 mart
22. Xarici siyasət vəzifələrimiz // "Səs" qəzeti, 1992, 16 fevral
23. Аббасбейли А.Н. Внешняя политика Российской Федерации. Баку: Элм, 2005, 472 s.

## ОТРАЖЕНИЕ МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В НАЦИОНАЛЬНОЙ ПРЕССЕ

**А.А.ЗЕЙНАЛОВА**

### РЕЗЮМЕ

В научной статье изучается роль и значение интернета, информационных агентств и других средств коммуникации в построении, развитии и совершенствовании межгосударственных отношений в современный период, определяются пути осуществления и реализации задач, а также приоритетов внутренней и внешней политики государства, являющимися субъектами международных отношений. На основе собранных материалов, раскрывается значение внутренней и внешней политики страны, а также анализируется дипломатические и политические действия общенационального лидера Гейдара Алиева и Президента Республики Ильхама Алиева в этом направлении.

**Ключевые слова**: организация, профессионализм, внешняя политика, государство, глобализация

## REFLECTION OF INTERNATIONAL RELATIONS OF THE AZERBAIJAN REPUBLIC IN NATIONAL MEDIA

**A.A.ZEYNALOVA**

### SUMMARY

The paper studies the role and importance of mass media, information agencies, internet and etc. in establishment, development, improvement and development trends of relations between states, explores the importance of information gathered about the internal and foreign status of the country in the identification and implementation of realization of internal and foreign policy priorities and analyzes National Leader Haydar Aliyev's and Ilham Aliyev's diplomatic and political activity in this direction.

**Key words:** organization, professionalism, foreign policy, government, globalization